**UDC:** 2.; 297.; 297.18.
**LBC:** 86.2\3; 86.38
**MJ №** 285
10.33864/2617-751X.2025.v8.i3.97-115

# INTERFAITH DIALOGUE AND TOLERANT APPROACHES TO DIFFERENT RELIGIONS ACCORDING TO THE QUR'AN

**Jeyhun Agayev***

**Abstract.** Dialogue, as a crucial phenomenon in human history and the development of societies, has always existed. The interactions between individuals and groups play an indispensable role in ensuring social harmony and peace. The Qur'an contains many verses concerning interfaith relations, which aim to promote mutual understanding, tolerance, and peace among different religious communities. The purpose of this article is to explore the concept of dialogue in the Qur'an and the interfaith relations with the People of the Book, analyze how this dialogue impacts social peace and tolerance, and examine its significant role in preventing religious conflicts. Interfaith dialogue strengthens the principle of coexistence both on an individual and societal level. The verses in the Qur'an create a positive foundation for mutual understanding and cooperation among various religious communities. However, radical approaches and extremism that seek to block dialogue can hinder progress in this area. Therefore, promoting dialogue is essential to prevent religious confrontations and conflicts. The benefits of dialogue are not only reflected in the unification of different religious perspectives but also in the enhancement of social harmony, security, and trust between communities. The conclusion of this article highlights that dialogue supports the development of religious understandings and societies, prevents radicalism, and facilitates the creation of a peaceful environment. Thus, promoting interfaith dialogue plays a crucial role in ensuring social stability and harmony.

**Keywords:** Qur'an, religion, interfaith dialogue, tolerance, People of the Book

---

* Doctor of Philosophy in Philosophy,
Senior Researcher at the "East-West" Department of the Z.Bunyadov Institute of Oriental Studies of ANAS;
Baku, Azerbaijan
E-mail: ceyhun.sakiroglu@mail.ru
https://orcid.org/0009-0004-8831-9442

**To cite this article:** Agayev, J. [2025]. INTERFAITH DIALOGUE AND TOLERANT APPROACHES TO DIFFERENT RELIGIONS ACCORDING TO THE QUR'AN. *“Metafizika” journal, 8*(3), pp.97-115. https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.97-115

***Article history:***
*Received: 09.01.2025*
*Accepted: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 2.; 297.; 297.18.
**ББК:** 86.2\3; 86.38
**MJ №** 285
10.33864/2617-751X.2025.v8.i3.97-115

# ДИАЛОГ МЕЖДУ РЕЛИГИЯМИ В СООТВЕТСТВИИ С КУР'АНОМ И ТОЛЕРАНТНЫЙ ПОДХОД К РАЗЛИЧНЫМ РЕЛИГИЯМ

**Джейхун Агаев***

**Абстракт.** Диалог является важным феноменом, который всегда существовал в человеческой истории и в развитии обществ, и служит основой их развития. Взаимодействие между отдельными людьми и группами играет незаменимую роль в обеспечении социальной гармонии и мира. В Кур’ане содержится множество аятов, которые направлены на продвижение взаимопонимания, толерантности и мира между различными религиозными общинами. Целью статьи является исследование концепции диалога в Кур’ане и межрелигиозных отношений с людьми Книги, а также анализ того, как этот диалог влияет на социальный мир и толерантность, а также играет важную роль в предотвращении религиозных конфликтов. Межрелигиозный диалог укрепляет принцип совместного существования как на индивидуальном, так и на социальном уровне. Аяты Кур’ана создают положительную основу для взаимопонимания и сотрудничества между различными религиозными общинами. Однако радикальные подходы и экстремизм, стремящиеся помешать диалогу, могут препятствовать прогрессу в этой области. Поэтому пропаганда диалога является важным аспектом в предотвращении религиозных конфликтов и споров. Преимущества диалога проявляются не только в объединении различных религиозных взглядов, но и в укреплении социальной гармонии, безопасности и доверия между общинами. В заключение, диалог поддерживает развитие религиозных представлений и обществ, предотвращает радикализм и способствует созданию условий для мира. Таким образом, пропаганда межрелигиозного диалога играет ключевую роль в обеспечении социальной стабильности и гармонии.

**Ключевые слова:** Кур’ан, религия, межрелигиозный диалог, толерантность, люди Книги

---

* Доктор философии по философии,
Старший научный сотрудник отдела "Восток-Запад" Института востоковедения им. З.Бюнядова НАНА;
Баку, Азербайджан
E-mail: ceyhun.sakiroglu@mail.ru
https://orcid.org/0009-0004-8831-9442

**Цитировать статью:** Агаев, Дж. [2025]. ДИАЛОГ МЕЖДУ РЕЛИГИЯМИ В СООТВЕТСТВИИ С КУР'АНОМ И ТОЛЕРАНТНЫЙ ПОДХОД К РАЗЛИЧНЫМ РЕЛИГИЯМ. *Журнал «Metafizika», 8(3),* с.97-115. https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.97-115

***История статьи:***
*Статья поступила в редакцию: 09.01.2025*
*Отправлена на доработку: 17.02.2025*
*Принята для печати: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 2.; 297.; 297.18.
**KBT:** 86.2\3; 86.38
**MJ №** 285
10.33864/2617-751X.2025.v8.i3.97-115

# QURANİ-KƏRİMƏ GÖRƏ DİNLƏRARASI DİALOQ VƏ MÜXTƏLİF DİNLƏRƏ TOLERANT YANAŞMA

**Ceyhun Ağayev***

**Abstrakt.** Dialoq, insan tarixinin və cəmiyyətlərin inkişafının əsas təməlini təşkil edən mühüm bir fenomen olaraq hər zaman var olmuşdur. Fərdlər və qruplar arasındakı qarşılıqlı əlaqələr, sosial harmoniya və sülhün təmin edilməsində dialoqun rolu əvəzsizdir. Qurani-Kərimdə dinlərarası münasibətlərə dair bir çox ayə mövcuddur ki, bunlar fərqli dini cəmiyyətlər arasında qarşılıqlı anlaşma, tolerantlıq və sülhün təşviqinə yönəlmişdir. Məqalənin məqsədi, Qurani-Kərimdəki dialoq anlayışını və kitab əhli ilə dinlərarası münasibətləri araşdırmaq, bu dialoqun sosial sülhə və tolerantlığa necə təsir etdiyini və dini qarşıdurmaların qarşısını almaqda necə mühüm rol oynadığını təhlil etməkdir. Dinlərarası dialoq, həm fərdi, həm də sosial səviyyədə birgəyaşayış prinsipini möhkəmləndirir. Qurani-Kərimdəki ayələr, müxtəlif dini cəmiyyətlər arasında qarşılıqlı anlaşma və əməkdaşlıq üçün müsbət bir zəmin yaradır. Lakin, dialoqun qarşısını almağa çalışan radikal yanaşmalar və ekstremizm, bu sahədəki irəliləyişi əngəlləyə bilər. Bu səbəbdən, dialoqun təbliği, dini qarşıdurmaların və münaqişələrin qarşısını almaq baxımından vacibdir. Dialoqun faydaları, yalnız fərqli dini baxışların birləşməsində deyil, həm də sosial harmoniya, təhlükəsizlik və cəmiyyətlər arasındakı güvənin artmasında özünü göstərir. Məqalənin nəticəsi olaraq, dialoq, dini anlayışların və cəmiyyətlərin inkişafını dəstəkləyir, radikalizmin qarşısını alır və sülh şəraitinin yaranmasına xidmət edir. Beləliklə, dinlərarası dialoqun təşviqi, sosial sabitliyin və harmoniyanın təmin olunmasında əsas rol oynayır.

**Açar sözlər:** Qurani-Kərim, din, dinlərarası dialoq, tolerantlıq, kitab əhli

* Fəlsəfə üzrə fəlsəfə doktoru,
AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun “Şərq-Qərb”şöbəsinin böyük elmi işçisi; Bakı, Azərbaycan
E-mail: ceyhun.sakiroglu@mail.ru
https://orcid.org/0009-0004-8831-9442

**Məqaləyə istinad:** Ağayev, C. [2025] QURANİ-KƏRİMƏ GÖRƏ DİNLƏRARASI DİALOQ VƏ MÜXTƏLİF DİNLƏRƏ TOLERANT YANAŞMA. *“Metafizika” jurnalı, 8*(3), səh.97-115.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.97-115

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 09.01.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 17.02.2025*
*Çapa qəbul edilmişdir: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# 1.Giriş

İnsan, sosial bir varlıq olaraq, qarşılıqlı əlaqələr qurmağa və münasibətlərə üstünlük verməyə meyllidir. Dinindən, milliyyətindən və irqindən asılı olmayaraq, digər insanlarla dialoq qurma və birgə yaşama ehtiyacı, onun təbii və xarakterik xüsusiyyətlərindəndir. Bu xüsusiyyət, insanın yaradılış etibarı ilə bağlıdır və onun sosial varlıq olaraq qarşılıqlı münasibətlər qurmağa olan ehtiyacını daha da qüvvətləndirir. Dialoq, insan həyatında həm sosial təsir, həm də qarşılıqlı anlaşma qurulması baxımından mühüm rol oynayır. Tarix boyu cəmiyyətlər öz inanc sistemlərini mənimsəyərək dini həyat yaşamış, bu da dialoqun əhəmiyyətini artırmışdır [Tümer, 1996, 137]. İnsanlığın mövcud olduğu hər dövründə dialoq var olmuş və heç bir dövrü dialoqsuz həyatla təsəvvür etmək mümkün olmamışdır.

Dialoq, hər bir xalqın və cəmiyyətin həyatında, mədəniyyətindən gündəlik fəaliyyətlərinə qədər öz əksini tapmış və qaçınılmaz bir həqiqət olaraq mövcud olmuşdur. İnsan həyatında qarşılıqlı münasibətlər o qədər vacib və zəruridir ki, doğulduğu gündən ölümlə sonlanan bir həyat boyunca dialoqa olan ehtiyacını davam etdirir. Dialoq, sosial bir fakt və zəruri bir ehtiyac olaraq cəmiyyətdə, müxtəlif irqlərdən və mədəniyyətlərdən olan insanlar arasında qarşılıqlı anlaşma təmin etmənin ən təsirli və ən təbii yoldur. Dialoqun, xüsusilə dinlərarası münasibətlərdə sosial həyatda bu qədər vacib olmasının əsas səbəblərindən biri, insanın daxilində başqa biri ilə münasibət qurmağa olan təbii ehtiyacın danılmaz olmasıdır. Bu ehtiyac insanın daxili aləminə və əməllərinə yerləşərək, başqalarını başa düşməsinə, onlarla münasibətlər qurmasına, düşüncələrini paylaşmasına və sosial əlaqələrdə özünü ifadə etməsinə imkan verir. Qurani-Kərim, dialoq vasitəsilə insanların düşüncə və hissiyatlarını bölüşmələrini, eyni bir məfhumda birləşmələrini təşviq edir və daha faydalı, ümidverici bir yanaşma təklif edir. “De: “Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək”. Əgər onlar üz döndərsələr, deyin: “Şahid olun ki, biz müsəlmanlarıq!” [Ali İmran, 64]. Beləliklə, inanc və dəyərlər sahəsindəki birliklərimiz, ümumi məsələlər üzrə daha dərin anlaşma və əməkdaşlıq imkanları yaradır [Bekir, 1998, 13-19].

Bu məqalənin məqsədi, Qurani-Kərimdəki dialoq anlayışını və bu anlayışın dinlərarası münasibətlərdəki rolunu araşdırmaqdır. Məqsəd, dini müxtəlifliklərə və mədəni fərqlərə qarşı daha açıq və tolerant bir yanaşmanın təmin edilməsi, eyni zamanda dini münaqişələrin qarşısını almaqda dialoqun əhəmiyyətini vurğulamaqdır. Qurani-Kərimdəki dialoq konsepsiyasının sosial və dini mühitdəki əhəmiyyətini təhlil edərək, bu yanaşmanın cəmiyyətlər arasında sülhün, qarşılıqlı anlayışın və sosial harmoniyanın təmin

olunmasındakı rolunu dəyərləndirməkdir. Dialoq, həm fərdi, həm də kollektiv səviyyədə sosial əlaqələrin gücləndirilməsi və fərqli dini cəmiyyətlər arasında empati və əməkdaşlıq qurulmasında əsas amildir.

Dialoqun faydalarını təhlil edərkən, onun insan cəmiyyəti üçün vacib olan sosial və mədəni təsirlərini nəzərə alaraq, müxtəlif dini baxışların bir araya gəlməsi və müsbət münasibətlərin yaranması üçün əhəmiyyətini vurğulamaq lazımdır. Qurani-Kərimdə dini müxtəlifliklərin qəbul edilməsi və birgəyaşayış prinsiplərinin təşviqi, həm fərdi, həm də cəmiyyət səviyyəsində qarşılıqlı anlayış və harmoniyanın gücləndirilməsinə xidmət edir. Dialoq, cəmiyyətlər arasında fərqliliklərin yox olmasına deyil, qarşılıqlı hörmət və anlaşma əsasında inkişaf edən birgəyaşayışa yönəldir. Bu, yalnız fərqli dini baxışları birləşdirmək deyil, həm də sosial stabilliyi təmin edərək radikalizmin qarşısını almaqda mühüm rol oynayır. Dialoq, həmçinin bir cəmiyyətin digər cəmiyyətlərlə əlaqələrinin güclənməsinə, təhlükəsizliyin artmasına və mədəni qarşılıqlı təsirin inkişafına töhfə verir.

Məqalənin nəticəsi olaraq, dialoqun təşviqi və dinlərarası münasibətlərin təhlili, sülhün və sosial sabitliyin yaradılmasında vacib bir alət olduğunu göstərir. Qurani-Kərimdəki dialoq anlayışı, fərqli dini cəmiyyətlər arasında müsbət əlaqələrin inkişafını dəstəkləyir və qarşılıqlı hörmət, anlayış və əməkdaşlıq əsasında bir dünyada yaşamağı mümkün edir. Dialoqun təbliği, yalnız fərqli inanc sistemlərinin birləşdirilməsi deyil, həm də dinlərarası qarşıdurmaların və münaqişələrin qarşısının alınması, sosial sabitliyin təmin edilməsi və müasir cəmiyyətlərdə harmoniya yaradılması üçün əsas amildir.

## 2.Qurani-Kərimdə dialoq və kitab əhlinə olan münasibət

Qurani-Kərimə dialoq və tolerantlıq prinsipləri yönü ilə nəzər saldıqda, mövzu ilə bağlı çoxlu sayda ayənin olduğunu görürük. Bu səbəbdəndir ki, bəzi istisnaları çıxmaq şərti ilə həmişə Quranı tolerant və multikultural görürük. Əgər Quranın ayələrinə bir az diqqətli baxılsa, xoşgörü, tolerantlıq, əfv və hər kəsi maraqlandıran onlarla ayəti görə bilərik. Bu, Quranın tarixi gerçəklikləri nəzərdə saxlamaq şərti ilə bütün dövr və zamanları əhatə edən beynəlxalq olduğunu göstərir. Quran tolerantlığı, dialoq çərçivəsini öncəliklə kitab əhli ilə və yeri gələrsə, bütün insanlara əl uzadacağını göstərməkdədir. Quran Bəqərə surəsinin ilk ayələrində bizlərə yumşaq bir dillə keçmiş peyğəmbərlərə və onlara nazil olanlara iman etməyə çağırır ki, bu da kitab əhli ilə dialoqun vacib olduğunu göstərir: "*O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar*" [Bəqərə, 4].

Dinimizin əsas qaynağı olan Qurani-Kərimə görə, Uca Allah insanları ancaq Ona qul olmaq üçün yaratmış: "Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım" [Zariyat, 56]. Allah insanlara ağıl, şüur və vicdan vermiş, bütün əsrlər boyu bütün qəbilə və tayfalara saysız-hesabsız nemətlər

vermişdir ki, onlar öz ibadətlərini həyata keçirə bilsinlər. Bununla yanaşı da doğru yolu tapmaq üçün onlara peyğəmbərlər göndərdi. Qurana nəzər saldıqda görürük ki, qeyd olunan ilahi vəzifəni daşıyan onlarla insanın adı qeyd olunmaqdadır. Bu müqəddəs vəzifə ilk peyğəmbər Həzrəti Adəm ilə başlanmış və sonuncu peyğəmbər Həzrəti Məhəmməd (s.a.v.) ilə sona çatmışdır: "*Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir*" [Əhzab", 40].

Şahidi oluruq ki, Qurani-Kərimdə bütün dinlərin əsas hədəf və təməl prinsipləri etibarı ilə eyni məqsəd daşıyır. Onların adı İslamdır, məqsədləri Allahın birliyinə dəvətdir: "Həqiqətən, Allah dərgahında (qəbul olunan) din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, (bilsin ki,) Allah tez haqq-hesab çəkəndir" [Ali İmran, 19]. Hədislərinin birində Peyğəmbərimiz (s.a.v.) buyurur: "Biz peyğəmbərlərin dini birdir." [Buxari, Ənbiya, 48]. Bu baxımdan hər bir müsəlman Allaha, mələklərə, kitablara və onun peyğəmbərlərinə fərq qoymadan inanmaq məcburiyyətindədir [Bəqərə, 285; Ali İmran, 84].

Unutmaq olmaz ki, Quranda Həzrəti Məhəmmədə (s.a.v.) ondan əvvəl gəlmiş bütün peyğəmbərlərin yolu ilə getməsi əmr olunmuşdur [Ənam, 90; Nahl, 123]. Həzrəti Məhəmməddən (s.a.v.) əvvəl gəlmiş kitablar olduğu kimi, gələcək nəsillərə ötrülmədiyi üçün Quranın icazə verdiyi ölçüdə digər ümmətlərə gələn kitabları qəbul etmək məcburiyyətindəyik. Sözün həqiqi mənasınca, Quranın müsəlman olmayanlarla tolerant davranması, onları incitməməsi bilinən bir həqiqətdir. Belə ki, Məkkəli bütpərəslərin içərisində olub da müsəlman öldürməyənlərə qarşı tolerant yanaşan, onlara zülm etməyi tövsiyyə etməyən Quranın nə qədər humanist və bağışlayıcı olduğunu bir daha şahidi oluruq: "*Allah sizinlə din uğrunda vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyinizi və onlara qarşı ədalətlə davranmağınızı qadağan etmir. Şübhəsiz ki, Allah ədalətli olanları sevir*" [Mumtəhənə, 8].

Bu ayətin təfsirinə nəzər salsaq, görərik ki, Həzrəti Peyğəmbərin yanına gələn Həzrəti Əsma anamız müsəlman olmayan analığının onunla görüşmək üçün Məkkədən Mədinəyə gəldiyini deyir və görüşmək üçün icazə istəyir. Bunu üzərinə bu ayət nazil olur və görüşməkdən daha artıq ona yaxşılıq etməyin heç bir narahatçılıq olmayacağını bildirir. [İbni Kəsir, Mumtəhənə, 8]. Bu ayət Qurani-Kərimin kitab əhlinə qarşı necə davranmağı, onlara hansı şərtlər altında tolerant olmağımızı göstərir. Təfsirçilərə görə, Mumtəhənə surəsinin səkkizinci ayəti Həzrəti Əbubəkrin qızı Əsma haqqında nazil olsa da [Suyûtî, 199, s.210-211], ayətin hökmü ümumidir və bütün müsəlmanlara aiddir ki, müsəlman olmayanlara qarşı hansı üslub və ədəblə davransın.

Qeyd olunan misalların sayını artırmaq mümkündür. Amma əsas məqsədimiz Qurani-Kərimdə dialoqa təşviq edən və bəzən də əmr edən ayətlərə nəzər salmaqdır. Unutmaq olmaz ki, Quran dinlərarası dialoqa və kitab əhli ilə münasibət qurmağı birbaşa müsəlmanlara əmr etmişdir. Allah (c.c.) müsəlmanların kitab əhli olan digər din mənsubları ilə ortaq dəyərlər üzərindən münasibətin qurulmasını qeyd edir və bu səbəblərin əsas vasitələrini göstərir [Ali İmran, 64].

Ayətdən də göründüyü kimi, Quranın kitab əhli insanlara yumşaq və xoşgörü prinsipləri əsasında yanaşır ki, bu da İslam dininin nə qədər tolerant bir din olduğunu sübut edir. Ənkəbut surəsinin 46-cı ayəsi isə kitab əhli ilə dialoqun əsas şərtlərini açıqlayan ayələrdən biri kimi bilinməkdədir: “Kitab əhlinin zülm edənləri (cizyə verməyənləri, sizinlə vuruşmaq istəyənləri) istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin! (Onlarla xoş rəftar edib ürəklərini ələ alın və özünüzdən incitməyin. Onların kobudluğuna nəzakətlə, qəzəblərinə soyuqqanlıqla cavab verin. Nalayiq işlər gördükdə nəsihət edib düz yola çağırın. Yox, əgər üstünüzə silah qaldırsalar, siz də silahlanıb onlarla vuruşun və onları təslim olmağa, cizyə verməyə məcbur edin!) Və (onlarla söhbət etdikdə) belə deyin: “*Biz həm özümüzə nazil olana (Qurana), həm də sizə nazil olana (Tövrata və İncilə) inanırıq. Bizim də Allahımız, sizin də Allahınız birdir. Biz yalnız Ona təslim olanlarıq!*” [Ənkəbut, 46]. Qurani-Kərim bu ayət vasitəsilə müsəlmanlara dialoqun metodikasını, davranış və ədəb qaydalarını göstərir.

Qurani-Kərimin dialoqa təşviq edən digər ayətlərinə nəzər salaq görərik ki, istər Quran, istər peyğəmbərimizin sünnəsi, istərsə də səhabələrin həyatında dialoqa zidd hər hansı bir fikir mövcud olmamışdır. İslam xoşgörü, multikultural və tolerant bir din olaraq, necə ola bilər ki, İslam dinində bunun ziddi ilə qarşılaşmaq mümkün olsun? Misal üçün, Təğabun və Casiyə surələrinin on dördüncü ayələrinə nəzər salaq: “*Ey iman gətirənlər! Şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar da vardır. Onlardan özünüzü qoruyun! Lakin onları əfv etsəniz, (günahlarından) keçsəniz və bağışlasanız, (bilin ki,) Allah Bağışlayandır, Rəhmlidir*” [Təğabun, 14]; “*(Ya Peyğəmbər!) İman gətirənlərə de ki, Allah etdiyi əməllərə görə hər hansı bir qövmün cəzasını (özü) versin deyə, Allahın (əzab) günlərindən qorxmayanları (əzab günlərinə, qiyamətə inanmadıqları üçün gözləməyənləri) bağışlasınlar! (Bu ayənin hökmü sonralar cihad haqqındakı ayə ilə ləğv edilmişdir)*” [Casiyə” 14].

Qurani-Kərimi çox diqqətlə incələdikdə onun həmişə bağışlamaq, əfv etmək və insanlara ümid vermə prinsipini əsas olaraq görürük. İslam dinində dinlərarası dialoq, dözümlülük, tolerantlıq əsas etibarı ilə Quran ayələrinə əsaslanır. Belə ki, dialoqun bərqərar olması üçün öncəliklə dözümlülük

prinsipinə əməl etmək lazımdır. Əgər bir-birimizi qəbul etməsək, dialoqun qurulması mümkün olmayacağı qaçınılmazdır. Qurani-Kərim "Dində məcburiyyət (zorakılıq) yoxdur. Doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edilmişdir. Artıq kim Tağutu (bütləri və ya şeytanları) inkar edib Allaha iman gətirərsə, o, heç vaxt qırılmayan ən möhkəm qulpdan yapışmış olar. Allah hər şeyi eşidəndir, biləndir!" [Bəqərə, 256]. Bu ayədəki "dində məcburiyyət yoxdur" ifadəsi ilə insanların zorla İslam dinini qəbul etməyə məcbur edilməsinin doğru olmadığı qaydasını ortaya qoyur. Bir başqa Quran ayəsində "Sizin dininiz sizə, mənim dinim də mənədir!" [Kafirun, 6]. Quranda dini dözümlülüyə aid onlarla ayəni misal olaraq göstərmək mümkündür. Quranda müharibə aparmaqla əlaqədar məqamlara gəlincə, bunlar dövrün xüsusi şərtləri və ya özünümüdafiə strategiyası kimi anlaşılmalıdır. Belə ki, müharibə ilə bağlı ehkamları dövrün tarixi kontekstindən ayıraraq, günümüzdəki zorakılıq halları ilə əlaqələndirmək obyektiv yanaşma deyil. İslamda müharibə və ya cihad, ilk növbədə, insanın özünü kamilləşdirməsi kimi izah edilir [Asəf, 2019, 187].

Dinlərarası dialoq haqqında aparılan çoxsaylı tədqiqatlar onun müxtəlif sahələrlə əlaqəsini göstərir. Bununla birlikdə, dinlərarası dialoqun əsas xüsusiyyəti ünsiyyət vasitəsi və mədəni bir hərəkat olmasıdır. Bu ünsiyyət bütün sahələrdə təsirli olmaqla yanaşı, ən çox dinə, mədəniyyətlərarası münasibətə təsirini göstərmişdir. Müasir tolerantlıq, multikultural dünyagörüşü təqdim edən dinlərarası dialoqun ziddiyyət təşkil etdiyi sahə kimi dəyərləndirənlər dini ənənəni qoruyub saxlayan mühafizəkarlardır. Bu mühafizəkarlar keçmişdən gələn dini dəyərlərin toxunulmadan qorunub saxlanmasını tələb etdikləri halda, qloballaşma dövründə dinlərarası dialoqa lokal kimliklərindən uzaqlaşaraq, əksər hallarda dialoqun bir parçası olmağa çağırışlar edilənlərə laqeyid də qala bilmirlər. Bu çağırışa verilən cavab isə öz kimliyindən qopmaq istəməyən fərdlərdən meydana gələn kütlələrin fundamentalist və radikal reaksiyası olur [Düzgün, 2003, 140-141; Richards, 2003, 3]. Qeyd olunanlar bir daha sübut edir ki, həzrəti Məhəmməd peyğəmbərin (s.a.v.) digər dinlərə məxsus olan insanlara qarşı münasibəti, ənənəni qoruyub saxlayan mühafizəkarların dediyi ilə üst-üstə düşmür. Bu fikrimizi əsaslandırmaq üçün yenə də peyğəmbərimizin həyatına nəzər salaq.

İslam tarixində dinlərarası dialoq və kitab əhlindən olan insanlara tolerant yanaşmaya verilə biləcək digər bir nümunə həzrəti Məhəmməd peyğəmbərin (s.a.v.) Nəcran xristianlarına olan münasibətidir. Məhəmməd peyğəmbər Nəcran xristianlardan ibarət heyət ilə görüşüb, onları Allahın son dini İslama dəvət etmişdir. Nəcranlılar həzrəti Məhəmməd peyğəmbərin (s.a.v.) dəvətini qəbul etməyincə müsəlmanlar tərəfindən sərbəst buraxılmış, heç bir təzyiqə məruz qalmamışdırlar. [Yurdaydın, 1986, 98] Tarixi qaynaqlarda göstərir ki,

müsəlmanlarla Nəcranlılar arasında müqavilə bağlanmışdır. Bağlanan müqaviləyə əsasən, Nəcran xristianlarının bütün təhlükəsizlik, mülkiyyət və dini ayinlərini yerinə yetirmə hüquqlarının qorunmasına zəmanət verilmişdir. Onların adət-ənənələrinə hörmətlə yanaşılacağı, dini işlərinə müdaxilə edilməyəcəyi də bu müqavilənin maddələri arasında yer almışdır [Hamidullah, 1997, 622].

Qeyd olunduğu kimi, İslam dini kitab əhlinə qarşı münasibət, dialoqu aparılması və onların dini inancları ilə yanaşı, adət-ənənələrinə belə müdaxilə etməmiş, onlarla sülh və əmin-amanlıq içərisində yaşamağa imkan vermişdir. Bu, Quranın kitab əhlinə qarşı ümumi bir baxışıdır. Qurani-Kərimin kitab əhlinə yönələn dialoqu bir mənalı şəkildə onları imana dəvət etmiş, son və haqq din olaraq İslamın kölgəsi altında hüzur və əbədi həyatın ola biləcəyini dönə-dönə vurğulamışdır. "Ey kitab verilmiş kimsələr! Bəzi üzləri tanınmaz hala salıb ənsələrinə (arxalarına) çevirməmişdən və şənbə gününün hörmətini saxlamayanlara (əshabus-səbtə) etdiyimiz kimi, onlara da lənət etməmişdən əvvəl əlinizdə olanı (Tövratı) təsdiqləyən olaraq nazil etdiyimizə (Qurana) iman gətirin! Allahın əmri mütləq yerinə yetəcəkdir!" [ən-Nisa, 47].

Quranın kitab əhlinə yanaşma tərzi onları marifləndirmək, qarşılıqlı dialoqun ədalətli olması və Quranı səhv yorumlamamaları prinsipi olmuşdur. Quran kitab əhlinin bu kimi davranışlarını önə sürərək onları yersiz və əsassız mübahisələrə təşviq etməmişdir. Bütün bunlara baxmayaraq, Quran kitab əhlinin eyni olmadığını və Quranın səsinə səs verib inananların olduğunu da qeyd etmişdir: "*Həqiqətən, kitab əhli içərisində elələri də vardır ki, onlar Allaha, həm sizə, həm də özlərinə nazil olanlara (Qurana, Tövrata və İncilə) inanır, Allaha boyun əyərək Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəndir*" [Ali İmran, 199]. Bütün bunlara baxmayaraq, kitab əhlinin böyük əksəriyyəti Allahın birliyini, təkliyini inkar etdiyi üçün onları bu xüsusda dəyərləndirmişdir. Elə bu səbəbdəndir ki, Qurani-Kərim dinindən asılı olmayaraq İslama və müsəlmanlara düşmənçilik etməyənləri qoruduğu kimi, düşmənçilik edənlərlə də ən yaxşı şəkildə mübarizə aparılmasını əmr etmişdir: "*Sizinlə vuruşanlara qarşı siz də Allah yolunda vuruşun və həddi aşmayın! Şübhəsiz ki, Allah həddi aşanları sevmir*" [əl-Bəqərə, 190].

Yuxarıda qeyd olunduğu kimi, Qurani-Kərim kitab əhlinin hamısının bir olmadığını bildirmiş və onlar arasında fərq qoymuşdur. Qoyulan fərqə görədir ki, kitab əhli ilə dialoqun aparılması uyğun görülmüşdür. Quranın dinlərarası dialoqun aparılması istiqamətində bütün dövr və zamanlara işıq tutan metodologiyası kitab əhli ilə dialoqun aparılmasının önünü açmışdır: "Rəbbindən açıq-aydın bir dəlilə əsaslanan, Allah tərəfindən bir şahidin (Cəbrailin) izlədiyi və ondan əvvəl Musanın rəhbər və mərhəmət olan kitabının

da şahidlik etdiyi kəs (başqaları kimi ola bilərmi)? Onlar (müsəlmanlar) ona inanırlar. Onu inkar edən zümrələrə vəd olunan yer cəhənnəmdir. Buna görə də onun barəsində şübhə etmə! Şübhəsiz ki, o, sənin Rəbbindən gələn haqdır. Ancaq insanların çoxu iman gətirməz" [Hud surəsi, 17]. Təfsirçilərə görə, bu ayətdə "başqaları kimi ola bilərmi?" ifadəsi kitab əhlinin iman əhli olduğu rəvayətidir [Beydâvî, 2006, 17]. Rəvayət olunur ki, Abdullah b. Səlam kimi kitab əhli olan bir neçə nəfər İslam dinini qəbul etdikdən sonra onu qəbul etmişdir [Kurtubî, 1985, IV, 175]. Bütün bunlar Quranın onu qəbul edib, etməyənlərə olan münasibətidir ki, yaxşıya yaxşı, pisə isə pis qiymətini vermişdir: "Kitab verdiyimiz kimsələr onu layiqincə oxuyarlar. Onlar ona iman gətirərlər. Kim onu inkar edərsə, əsil ziyana uğrayanlar məhz onlardır" [əl-Bəqərə, 121].

Bu ayətdən də məlum olur ki, kitab əhlindən Qurana inananlar olmuşdur. Bu və bunun kimi bir neçə ayət daha açıq bir şəkildə kitab əhlinin inananları və inanmayanları haqqında məlumat verməklə yanaşı, müsəlmanların və inananların kitab əhli olanların hər birini tərəzinin eyni gözünə qoyulmamasını xüsusi olaraq vurğulayır. Biz bu ayətin nazil olma səbəbinə baxsaq, görərik ki, Həzrəti Peyğəmbər (s.a.v.) məsciddə səhabələrinə dediyi sözlər bu ayətin nazil olmasına səbəb olmuşdur. İbn Məsuddan rəvayət edir: "Allah Rəsulu (s.a.v.) bir gün İşa namazını gecikdirərək məscidə gəldiyində, müsəlmanların namaz üçün gözlədiyini gördü. Onların bu vəziyyətini görə, Allahın Rəsulu (s.a.v.) belə dedi: 'Sizlərdən başqa heç bir din mənsubu bu saatda Allahı zikr etməməkdədir.'" Bu hadisə üzərinə də bu ayət nazil oldu [Vâhidî, 1991, 40; Kurtubî, 2006, IV, 175]. "Hamısı eyni cür deyillər. Kitab əhli içərisində haqdan möhkəm yapışan bir camaat vardır ki, onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar" [Ali İmran, 113]. Bu ayətin Xristiyanlar haqqında nazil olduğu rəvayət olunmaqdadır. Belə ki, bunlar Nəcranlı 40, Həbəşli 32 və Rumlardan 3 nəfər olmaqla cəmi 75 Xristiandan ibarət idi [Râzî, 1981, VIII, 187].

Qurani-Kərimdə diqqət çəkən məqamlardan biri də kitab əhlinin güvənilən insanlar olması baxımından eyni olmadıqları məsələsidir. "*Kitab əhlindən eləsi var ki, ona bir yığın (mal) əmanət etsən, onu sənə (tam) qaytarar. Onlardan eləsi də var ki, ona bir dinar versən belə, başının üstündə durub tələb etməyincə onu sənə qaytarmaz. Bu, ona görədir ki, onlar: "Avamlardan ötrü bizə günah olmaz!" – deyirlər və bilə-bilə Allaha qarşı yalan söyləyirlər*" [Ali İmran, 75]. Ayədən də məlum olduğu kimi, Allah kitab əhlinin hər birinin eyni olmadığını vurğulayır və onlarla dialoq qurub yaxınlıq edərkən daha diqqətli olunmasını qeyd edir. Müfəssirlər bu ayətə görə güvənilən adamın Abdullah b. Səlam, güvənilməyənlərin isə Kabu'l-Əşrəf və Finhas b. Âzûr kimi Yahudiləri misal olaraq göstəriblər [Kurtubî, 2006, IV, 115].

Rəvayət olunduğuna görə, Həbəşistandan olan Cafer b. Əbi Talib ilə Mədinəyə gələn kitab əhlindən bir qrup xristianı Həzrəti Peyğəmbər (s.a.v.) İslama dəvət etdi və onlar da bunu qəbul edib müsəlman oldular. İslam dinini qəbul edən bu insanlar Quranı eşitdikdən sonra göz yaşlarına hakim ola bilməmiş və bu hadisənin ardınca Maidə surəsinin 83 və 84-cü ayələri nazil olmuşdur:

"*Peyğəmbərə nazil olanı eşitdikləri zaman bildikləri həqiqətə görə onların gözlərindən yaş axdığını görərsən. Onlar deyərlər: "Ey Rəbbimiz! Biz iman gətirdik. Bizi (haqqa) şahid olanlarla birlikdə yaz!*" [Maidə, 83]. "*Rəbbimizin bizi əməlisaleh insanlarla birlikdə (cənnətə) daxil etməsini umarkən, nə üçün Allaha və bizə gələn həqiqətə iman gətirməyək?*" [Maidə, 84].

Yuxarıda qeyd olunanların nəticəsi olaraq deyə bilərik ki, Peyğəmbərimiz (s.a.v.) Quranın ayələrini insanlara bildirdiyi vaxt kitab əhli olaraq bilinən insanların içərisindən İslam dininə, Həzrəti Məhəmmədə (s.a.v.) və ona inananlara qarşı düşmənçilik etməyib, deyilənlərə inad olaraq pis davranmayan bir qrup insan elə Qurandan əvvəldə göndərilən kitablara və peyğəmbərlərə də iman gətirmişdir. Yeri gəlmişkən, xüsusi olaraq qeyd etmək lazımdır ki, bu insanlar Qurani-Kərimin ayələrini eşitdikləri vaxt onu incələməyə belə ehtiyac hiss etməmiş, Quran ayələrinə qarşı heç bir narahatçılıq hiss etməmişlər. Elə bu səbəbdəndir ki, Qurani-Kərim də bu insanlar arasında fərqi ortaya qoyaraq bütün kitab əhlini eyni kateqoriyada dəyərləndirməmişdir. Quranla yanaşı, Peyğəmbərimizin hədislərinə nəzər salsaq görərik ki, O da kitab əhlinin hər birini eyni gözdə görməmiş, onlardan inananları belə müjdələmişdir.

İslam tarixindən də məlum olduğu kimi, Həzrəti Məhəmməd (s.a.v.) Həbəşistan kralı Nəcaşi ilə görüşməsə də, onun Peyğəmbərimizə inanmasını yüksək qiymətləndirmiş və Nəcaşi öldüyü vaxt səhabələrinə: "Qardaşınız üçün Allahdan bağışlanma istəyin" demişdir. Peyğəmbərin bu sözünü eşidən münafiqlər (ikiüzlülər): "Həbəşistanda olan bir imansız üçün Allahdan bağışlanmasını istəməyimizimi əmr edir?" sözlərinə cavab olaraq bu ayət nazil olmuşdur [İbn Kəsîr, 1980, I, 443]. Uca Allah (c.c.): "Həqiqətən, kitab əhli içərisində elələri də vardır ki, onlar Allaha, həm sizə, həm də özlərinə nazil olanlara (Qurana, Tövrata və İncilə) inanır, Allaha boyun əyərək Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəndir" [Ali İmran, 199]. Allah (c.c.) Qurani-Kərimdə kitab əhlindən inananları müjdələdiyi kimi, inanmayanlar da tolerant yanaşmış və bunun nəticəsi olaraq qısa zaman dilimində müsəlman olmayanlar İslamı qəbul etmişdir.

Qurani-Kərimdə dialoq və kitab əhlinə olan münasibəti müxtəlif yönləri ilə tədqiq etmək və dəyərləndirmək mümkündür. Bu dəyərləndirmələrdən biri də Quranda inanc azadlığı məsələsidir. İnanc azadlığı məsələsi o qədər

əhəmiyyətlidir ki, buna əməl olunmadığı təqdirdə dinindən və milliyyətindən asılı olmayaraq heç kimlə dialoq qurmaq mümkün görünmür. Bu münasibət necə mümkün ola bilər ki, zorla kiməsə öz inancını qəbul etdirmək istəyirsən? Qurani-Kərimə görə bu qəbul olunmayan bir əməldir: "Dində məcburiyyət (zorakılıq) yoxdur. Doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edilmişdir. Artıq kim Tağutu (bütləri və ya şeytanları) inkar edib Allaha iman gətirərsə, o, heç vaxt qırılmayan ən möhkəm qulpdan yapışmış olar. Allah hər şeyi eşidəndir, biləndir!" [əl-Bəqərə, 256]. Bu ayədəki "Dində məcburiyyət yoxdur" ifadəsi ilə insanların zorla İslam dinini qəbul etməyə məcbur edilməsinin doğru olmadığı bildirilir. Əbu Davudun rəvayətinə görə, uşağı olan, amma yaşamayan qadınlar, uşaqları sağ qalsa, onları yəhudi edəcəklərini, Allaha nəzr deyib qurban kəsəcəkləri barədə söz verirdilər. Mədinəlilər isə yəhudi olmuş uşaqlarının onlarla getməsinə razı olmadılar və bunun üzərinə "Dində məcburiyyət yoxdur" ayəti nazil oldu [Əbu Davud, Esbâbu'n-Nüzûl, 48]. Təfsirçilərə görə bu ayətin nüzul səbəbi baxımından mədinəli Ənsar qəbiləsinin öz uşaqlarını belə zorla dinlərindən döndərmələrinə qarşı olduqlarının şahidi oluruq.

Yeri gəldikcə qeyd etdiyimiz ayət və hədislərdən də məlum olduğu kimi, Qurani-Kərimdə Allahın insanları zorla iman etməyə məcbur etmədiyi, müsəlman olmayanlarla yumuşaq və mehriban davranılmasını, onlarla yaxşı şəkildə mübarizə aparılmasını istədiyi vurğulanır. Quranın buyurduqları və həzrəti Məhəmmədin (s.a.v.) müsəlman olmayanlarla bağlı narahatlığı, İslam dininin nə qədər tolerant və dini etiqad azadlığına dəyər verdiyini bir daha göstərir. Çünki Allah (c.c.) hər kəsin öz razılığı və məcburiyyət olmadan İslamı qəbul etməsini istəyir. [Ahmed, 1987, 90-91] Bu fikrimizi bir ayətlə yekunlaşdırmaq istəyirəm: "(Ya Rəsulum! Məkkə müşrikləri) iman gətirməyəcəklər deyə, bəlkə, özünü həlak edəsən?! (Özünü həlakmı edəcəksən?). Əgər istəsək, göydən onlara bir ayə (dəlil) göndərərik, onlar da ona (səssiz-səmirsiz) boyun əyib durarlar" [əş-Şuəra, 3-4].

Quranı bilmək, onun həqiqətlərini dövrünə və zamana görə dəyərləndirmək, bir sözlə, dini maarifləndirmə, ekstremizmə meyil edənlərin qarşısını alaraq, ona meyl edənlərin sayını da azaldacaqdır. Qurani-Kərimin və həzrəti Peyğəmbərin kitab əhlinə, müşriklərə qarşı olan münasibəti və dialoq mühitinin bərqərar olması, bəşər övladının rahat yaşayacağı bir dünya fikrini bir daha dəlilləri ilə sübut edir. Xüsusi olaraq desək, Quranın dinlərarası dialoq ayələrinə qulaq vermək, onun əhli kitabla olan münasibətini düzgün dəyərləndirmək, İslamın tolerantlığını təbliğ etməkdir ki, bu da qloballaşan dünyada sülhü və sabitliyi təmin etmək deməkdir.

**3.Dinlərarası tolerantlıq və onun əhəmiyyəti**

Qurani-Kərimdə dialoq və kitab əhlinə olan münasibətlə yanaşı dinlərarası tolerantlıq da öz aktuallığı ilə tədqiqatçıların gündəmində olmuşdur. Belə ki, tolerantlıq qloballaşan dünyanın ən çox müzakirə olunan məsələlərindən biridir. Son illər dünyada baş verən münaqişələr bir daha sübut edir ki, dünyamızın xoş gələcəyi yalnız və ancaq tolerantlıq prinsiplərinə maneəsiz və müdaxiləsiz icra olunması nəticəsində əldə oluna bilər. Çünki dünyada fərqli xalqlar, mədəniyyətlər və dinlər mövcuddur. Belə olan təqdirdə insanların ortaq dəyərləri üzərindən sabitliyi və sülhü bərqərar etmək daha rahat və məntiqlidir. Belə ki, inanclar və dəyərlər eyni olmasa da, insan faktoru üzərindən münasibət qurmaq və daha sonrakı məqamlarda dini dəyərlər və onun keçmişə, günümüzə və gələcəyə baxan yönləri ilə tolerantlıq prinsiplərini işə salmaq mümkündür. İslam tarixinə nəzər salsaq, görərik ki, normal həyat şəraitində həzrət Peyğəmbər (s.a.v.) və onun səhabələri (davamçıları, dostları) Qurani-Kərimin gətirdiyi tolerantlıq prinsiplərini bütün insanlara qarşı fərq qoymadan, mümkün olduğu qədər yerinə yetirməyə çalışmışlar. Həzrəti Peyğəmbərin (s.a.v.) qeyri-müsəlmanlarla və xüsusilə kitab əhli ilə bağladığı müqavilələrdə onların haqqını qəsb etmədiyi, təzyiq göstərmədiyi bütün dini qaynaqlarda öz əksini tapmışdır [Söylemez, 2010, 101] Hətta, miladi 628-ci ilin martında Mədinə müsəlmanları ilə Məkkə müşrikləri arasında imzalanmış Hudeybiyyə sülhü müqaviləsində belə adının qarşısındakı rəsul sözünün müqavilə mətnindən çıxarılmasına belə etiraz etməmişdir [Hamidullah, c.18, s.298].

Tolerantlıq, Latın sözü olub, “tolerancia”nın hərfi mənası dözümlülük deməkdir. Lakin bu ifadənin mənası və daşıdığı mahiyyət etibarı ilə fərqli izahları və varyantlar mövcuddur. Bütün fərqliliklərə və mədəniyyətlərə baxmayaraq, mədəniyyətlərin qəbul etdiyi fitri ehtiyac olan dini və mənəviyyata olan ehtiyacdır ki, dəyişməz olaraq qalır. “Tolerant” sözü Azərbaycan dilinə “dözümlü” kimi tərcümə olunsa da, bəzən onun əvəzinə Anadolu türkcəsindən götürülmüş “xoşgörü” kəlməsindən istifadə edilir. Hətta “tolerant” kəlməsini “hörmət” kimi tərcümə edənlər də var [Gündüz, 2014, 13].

İslam dinində də tolerantlıq prinsiplərinə xüsusi önəm verilir. Belə ki, Allah Qurani-Kərimdə buyurur: “...Biz səni onların üzərində gözətçi qoymamışıq və sən onların vəkili də deyilsən!” [Ənam, 107; Ali-İmran, 20]; “Hər kəsin qazandığı günah ancaq özünə aiddir. Heç bir günahkar başqasının günahını daşımaz” [Ənam”, 164]. Göründüyü kimi, Allah (c.c.) insanları bir-birinə qarşı qəzəbli, dözümsüz və başqalarının dəyərlərinə hörmətsizlik etməkdən çəkindirir. İslam dini tolerantlıq prinsiplərini sağlam təməllər üstünə oturdaraq müxtəlif inanclı insanlar arasında münasibət qurmaq və onlar arasında körpü rolunu oynayıb tolerant mühitin formalaşmasına nail olmuşdur. “Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə,

sizi xalqlara və qəbilələrə ayırdıq...” [Hucurat, 13]. Son dövrlərdə dünyada baş verən hadisələr bir daha sübut edir ki, insanların bir-birini tanıması, qarşılıqlı münasibətlərinin formalaşmasının əsası tolerantlıqdan keçir.

Məlum olduğu kimi, XX əsrin sonu sosialist düşüncə tərzinin mövcud vəziyyətdə süquta uğraması və bununla yanaşı, qloballaşan dünyanın siyasi xəritəsinin dəyişməsi, ictimai həyatın müxtəlif sahələrində yaranan problemlər və münasibətlərin gərginləşməsi dinlərarası tolerantlığı bir daha gündəmə çıxartdı. Öncəliklə, dünyada tüğyan edən iqtisadi və texnoloji rəqabət inkişafla bərabər bir sıra mənəvi problemləri, əxlaqi-etik dəyərlərin labüdlüyünün qarşısını ala bilmədi. Baş verənlər bununla kifayətlənməyib, dünyada mövcud olan dinlər və həmin dinlərin inananları arasında “sivilizasiyaların toqquşması” nəzəriyyəsi meydana çıxmasına təkan verdi [Huntington, 1993, 22].

Dünyada “sivilizasiyaların toqquşması” baş verərkən, İslamın dialoqa münasibəti və onun digər dinlərə qarşı müqayisə olunmayacaq münasibəti bir daha tədqiqatçıların diqqətini çəkmiş və yenə də əsərlər ərsəyə gəlmişdir. İslam dinində dinlərarası tolerantlıq bir sıra prinsiplərə əsaslanır. Bu prinsiplər dialoqu müsəlmanlarla fərqli din və mədəniyyət mənsubları arasındakı münasibətlərdə əsas vasitəyə çevirir. Bu prinsip və tərkib elementlərinə aşağıdakılar daxildir:

1. İslamın cahanşümulluğu (universallığı) və dinin birliyi (vəhdəti);
2. İslamın cahanşümulluğu və bəşəriyyətin birliyi;
3. Dini-mədəni müxtəlifliyin mövcudluğunu qəbul etmək;
4. Ədalət, bərabərlik, qarşılıqlı ehtiram və etiraf [Məhəmməd, 2011, 14].

Qeyd etmək lazımdır ki, tolerantlıq məsələsi dinlərarası dialoqun, dini tolerantlığın və tolerant münasibətin qurulub inkişaf etdirilməsi üçün vacib və ön şərtlərdən biridir. Mədəniyyətlərarası münasibətlərin qurulması üçün dinlərarası dialoq həqiqətən zəruri bir ehtiyacdır. Burada ən vacib məqamlardan biri insanların din ehtiyacının özlərinə və başqalarına ziyan vurmamasıdır. Bu ehtiyacın qarşılanması üçün tərcih olunan metodlar hansı formada seçilirsə və onların yerinə yetirilməsi məsələsi cəmiyyətin maddi-mənəvi və fiziki sağlamlığı, eləcə də gələcək inkişafı perspektivi baxımından böyük əhəmiyyət daşıyır. Ona görə ki, insanların düşüncə və inanclarındakı etiqadların hamısını dinə aid etmək doğru deyildir.

Bildiyimiz kimi, hər bir xalqın dözümlülük haqqında fikri eyni deyildir. Dözümlülük və xüsusilə dinlərarası tolerantlıq hər bir ölkənin siyasi arenasında və vətəndaşları tərəfindən fərqli və yüksək qiymətləndirilir. Təssüflər olsun ki, çox zaman tolerantlıq məsələsi tam dərk edilmir. Bunun da əsas səbəbi dinlərarası dialoq zəmininin olmaması və ya düzgün dəyərləndirilə bilməməsidir. Tarixi təcrübə elə bir nümunədir ki, özündə bütün tarixi

həqiqətləri qoruyub saxlayır. Belə ki, dini tolerantlıq, dinlər arasında dostluq və əməkdaşlığın bərqərar olması üçün yalnız bir metod olaraq istifadə olunmuşdur. Bu tarixi təcrübə bir daha sübut edir ki, əhli kitabla dialoqun qurulması üçün öncəliklə tolerant prinsipləri irəli sürülür ki, bu da bir çox hallarda öz bəhrəsini verir. Qeyd olunmalıdır ki, bu prinsiplərin müsəlmanlara aid olması və bu prinsiplərin tətbiq edilə bilməsi üçün Quran-Kərim ayətlərinə və hədislərə baxılması lazımdır. Belə olan təqdirdə bir müsəlmanın kitab əhli və yaxud da başqa bir dini inanca sahib olanla münasibəti müsbət və mənfi mənada fərqli olacaqdır. Əgər Quranın "*Kafirlərlə dostluq və sirdaşlıq etməyin…*" ayətlərini əsas alıb digər ayətlərə və xüsusilə Məkkə dönəmi ayətləri ilə Mədinə dönəmi ayətlərinin fərqini nəzərə almadan bu ayəti hökm olaraq ələ alsaq, bu Quranı yanlış anlamaq olacaqdır ki, bu da arzu olunan deyildir. Çünki Məkkə dönəmində kitab əhli ilə münasibətin daha yaxşı olduğunu, amma Mədinə dövründə daha fərqli olduğunu görürük.

Bununla bağlı olaraq bir neçə Quran ayəsinə nəzər salaq: "*Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kimsə (bilsin ki,) Allah ilə (onun) heç bir əlaqəsi yoxdur. Ancaq onlardan (gələn təhlükədən) çəkinməklə ehtiyat etməyiniz istisnadır. Allah sizi Özündən çəkindirir. Dönüş də ancaq Allahadır*" [Ali İmran, 28].

"Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizlərdən kim onları (özünə) dost tutarsa, o da onlardandır. Allah zalım adamları doğru yola yönəltməz" [əl-Maidə, 51].

"Ey iman gətirənlər! Özündən başqasını özünüzə sirdaş (dost) tutmayın. Onlar sizin barənizdə fitnə-fəsad törətməkdən əl çəkməzlər, sizin (zərərə və) əziyyətə düşməyinizi istəyirlər. Həqiqətən, onların sizə qarşı olan ədavəti ağızlarından çıxan sözlərdən aşkar olur. Amma ürəklərində gizlətdikləri (düşmənçilik) isə daha böyükdür. Əgər düşünüb dərk edirsinizsə, (onların sizə bəslədikləri ədavət barəsindəki) ayələri artıq sizə izah etdik" [Ali İmran, 118].

"Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün sayırlarsa, onları dost tutmayın. Sizlərdən onları dost tutanlar zalımlardır" [ət-Tovbə, 23].

Yuxarıda qeyd olunan ayətlərdən başqa ayətlər [Nisa, 139, 140, 144; Mâidə, 55-57; Mücâdilə, 22; Mümtəhinə, 1-4, 9, 13] müsəlmanların qeyri-müsəlmanlar haqqında və onların İslam dininə qarşı olan vəziyyətlərindən xəbər verir ki, bu da dialoqun qurulması üçün əhəmiyyətlidir. Qeyd olunan ayətlərdən də şahidi oluruq ki, Qurani-Kərimdə müsəlmanlar tolerantlığın, sülhün, sabitliyin və dialoqun əsas daşıyıcısı olduğu xüsusi olaraq vurğulanır. Müsəlmanlar qloballaşan dünya şərtləri içərisində dialoqun və tolerantlığın əsas daşıyıcısı olduğunu unutmamalı və dinlərarası dialoqun bərqərar olması üçün İslam tarixində minlərlə yaxşı nümunələri rəhbər almalı və yoluna davam

etməlidir. Bunu həyata keçirməsi üçün nə dinimiz, nə dəki müasir dövrün tələbləri buna əngəl törətmir. Texnologiya, elmin inkişafı ilə birlikdə həyata keçirilən işlər sayəsində dünya ölkələrinin bir-biri ilə münasibət qurması daha asan olmuşdur. Yaranan bu vəziyyətdən istifadə edərək İslam dininin dinlərarası dialoqa və digər dinlərə tolerant münasibətinin olduğunu göstərmək və İslam dinini xoşgörüsünü və multikultural bir din olduğunu bir daha ayət və hədislərin işığında izah etmək lazımdır. Bütün bunları etmək üçün öncəliklə dinlərarası dialoqa xoş münasibətlə yanaşmaq lazımdır. İslam dininin əsas qaynaqları həmişə qarşıdurmalara və terrora qarşı olmuş, multikulturalizmə, tolerantlığa, dözümlülüyə və dinlərarası dialoqa tərəfdar çıxmışdır.

**4.Nəticə**

Dinlərarası dialoq, tarix boyu həm müsəlmanların, həm də kitab əhlinin həyatında mühüm rol oynamışdır. Qədim dövrlərdən bu günə qədər müxtəlif dinlərdə dialoq və tolerantlıq prinsiplərinin müxtəlif formalarda mövcud olduğunu görmək mümkündür. Bu səbəbdən, İslam dini ilə digər dinlər bir-biriləri ilə sıx əlaqələr qurmuş və bir-birinə təsir edərək anlaşma və münasibət qurma istiqamətində irəliləmişdir. Başqa sözlə desək, dialoq vasitəsilə dinlər həm cəmiyyətə, həm də sosial hadisələrə təsir göstərmişdir. Qloballaşma, müasirlik, dialoq və tolerantlıq kimi, bəşəriyyəti təsir edən amillər dinə də öz təsirini göstərir. Lakin, bunlara qarşı müxtəlif inananlar eyni mövqedə olmurlar. Bəzi cəmiyyətlər öz strukturlarına uyğun olaraq, yenilikləri qəbul edir və dinlərarası dialoqu ayətlərin doğru təfsiri ilə həyata keçirərək kitab əhli ilə əlaqə qururlar. Digər cəmiyyətlər isə ənənələrinə daha sıx bağlı qalaraq, yuxarıda qeyd olunanları dinə və dəyərlərə təhlükə olaraq qiymətləndirirlər. Bu vəziyyət isə müxtəlif anlayışlara sahib, ayələri öz məzhəb və dini baxışlarına görə təfsir edən qrupların yaranmasına səbəb olur.

Buna görə də, dinlərarası dialoq və kitab əhli ilə əlaqənin tolerantlıq prinsipləri əsasında qurulması müasir dövrün zərurətidir. Bu dialoq, dinimizin təbliği baxımından müsəlmanlar üçün bir fürsət yaradır. Çünki Qərb, heç bir zaman müsəlmanlarla dinlərarası dialoqa yaxın münasibət göstərməmişdir. Buna görə də, qloballaşan dünyada mədəniyyətlərarası gərginliklər artmaqdadır ki, bu da bütün bəşəriyyətin ağır nəticələrini ödəməsinə səbəb olur. Quran isə bütün insanları dialoq vasitəsilə qardaşlıq və dostluğa dəvət edərək onları sülh və əmin-amanlığa yönəldir. Bunun yeganə həlli isə tolerantlıq prinsiplərinə riayət etməkdir.

## ƏDƏBİYYAT

1. *Qurani-Kərim.* (2016). Azərbaycan dilinə tərcümə edənlər: Z. Bünyadov, V. Məmmədəliyev. Bakı.
2. Asəf, Q. (2019). *Azərbaycanda Dövlət-din münasibətləri: dünyəviliyin nəzəri və hüquqi əsasları.* Bakı: Nurlar nəşriyyatı, s. 216.
3. Hammâd, A. C. (1987). *Hürriyyetü'r-re'y.* s. 90–91.
4. Bekir, K. (1998). Açılış Konuşması. In *Kültürlerarası Diyalog Sempozyumu* (7–8 Mart), s. 13–19. İstanbul: İst. Büyük Şehir Belediyesi.
5. Buhârî, M. b. İ. (2003). *Sahîhu'l-Buhârî* (Mısır/Bulak neşrinin tıpkıbasımı, C. I–IX). Üsküdar: Âsitâne Kitabevi, s. 48.
6. Beydâvî, K. N. (2006). *Envâru't-Tenzîl ve Esrâru't-Te'vîl,* Hud sûresi 17. âyetin tefsiri. Beyrut.
7. Düzgün, A. (2003). Globalizm ve dini değerlerdeki dönüşüm. *Dini Araştırmalar,* 6(17).
8. Ebû Davud. *Cihâd,* 126.
9. Gündüz, İ. (2014). *Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz.* Bakı: Nurlar nəşriyyatı, s. 13.
10. Hamidullah, M. (1997). *İslam Peyğəmbəri* (C. I), s. 622.
11. Hamidullah, M. (n.d.). Hudeybiye Antlaşması. In *TDV İslam Ansiklopedisi* (C. 18). İstanbul, s. 298.
12. Huntington, S. (1993). Clash of civilizations? *Foreign Affairs, 72*(3), 22–49, s. 22.
13. İbn Kəsir. (1980). *Tefsiru'l-Kur'âni'l-Azîm* (C. I). Kahire, s. 443.
14. Məhəmməd, X. (2011). *Dialoq mədəniyyəti və metodologiyası.* Bakı, s. 14.
15. Mehmet, A. (2003). *Dünya barışının sağlanmasında din temsilçilerine düşen sorumluluk.* İstanbul: Bahar Yayınları, s. 195–200.
16. el-Kurtubî, M. b. A. (2006). *el-Câmiʿ li-aḥkâmi'l-Ḳurʾân* (C. IV) (A. b. A. et-Türkî et al., Eds.). Beyrut, s. 75.
17. Richards, A. (2003, July). Socio-economic roots of radicalism? Towards explaining the appeal of Islamic radicals.
18. Er-Râzî, F. (1981). *Mefâtîhu'l-Gayb (et-Tefsirü'l-Kebîr).* Beyrut: Darul Fikr.
19. Suyûtî. (1990). *Lübabu'n-Nukûl fî Esbâbi'n-Nüzûl.* Beyrut, 210–211.
20. Söylemez, M. (2010). İlk dönem İslam toplumunda gayrimüslimlerin yeri: Haklar ve hoşgörü. *İstanbul Üniversitesi İlahiyat Fakültesi Dergisi, 22,* s.101.
21. Şahin, M. (2003). *Dinlerin işbirliğinin yol açısı olarak dinler tarihi.* Konya: Derin Yayınları, p. 140.
22. Tümer, G. (1996). Dinin toplum hayatındaki yeri ve önemi. In *Tartışılan Değerler Açısından Türkiye (Sempozyum, 17–18 Haziran 1995).* Ankara.

**23.** Vâhidî. (1991). *Esbâbu'n-Nüzûl*. Demâm, p. 40.
**24.** Yurdaydın, H. G. (1986). İslam devletlerinde Müslüman olmayanların durumu. *Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi*, *27*(1), 97–110, s.98.

## REFERENCES

**1.** *The Holy Quran* (2016). Translated into Azerbaijani by Z. Bunyadov & V. Mammadaliyev. Baku. (in Azerbaijani)
**2.** Asaf, Q. (2019). *State–religion relations in Azerbaijan: Theoretical and legal foundations of secularism*. Baku: Nurlar Publishing House, p. 216. (in Azerbaijani)
**3.** Hammad, A. C. (1987). *Freedom of opinion*. pp. 90–91. (in Arabic)
**4.** Bekir, K. (1998). Opening speech. In *Symposium on Intercultural Dialogue (March 7–8)*, pp. 13–19. Istanbul: Istanbul Metropolitan Municipality. (in Turkish)
**5.** Bukhari, M. b. I. (2003). *Sahih al-Bukhari* (Facsimile of Egypt/Bulak edition, Vol. I–IX), p. 48. Uskudar: Asitane Publishing. (in Arabic)
**6.** Baydawi, K. N. (2006). *Anwar al-Tanzil wa Asrar al-Ta'wil*, commentary on Surah Hud, verse 17. Beirut. (in Arabic)
**7.** Duzgun, A. (2003). *Globalism and the transformation of religious values*. *Religious Research*, 6(17). (in Turkish)
**8.** Abu Dawud. *Jihad*, 126. (in Arabic)
**9.** Gunduz, I. (2014). *Tolerance: What we know and what we don't know*. Baku: Nurlar Publishing, p. 13. (in Azerbaijani)
**10.** Hamidullah, M. (1997). *The Prophet of Islam* (Vol. I), p. 622. (in Turkish)
**11.** Hamidullah, M. (n.d.). Treaty of Hudaybiyyah. In *TDV Encyclopedia of Islam* (Vol. 18). Istanbul, p. 298. (in Turkish)
**12.** Huntington, S. (1993). Clash of civilizations? *Foreign Affairs*, *72*(3), 22–49, p. 22. (in English)
**13.** Ibn Kathir. (1980). *Tafsir al-Qur'an al-Azim* (Vol. 1). Cairo, p.443. (in Arabic)
**14.** Mammad, Kh. (2011). *Culture and methodology of dialogue*. Baku, p. 14. (in Azerbaijani)
**15.** Mehmet, A. (2003). *The responsibility of religious representatives in achieving world peace*. Istanbul: Bahar Publishing, pp. 195–200. (in Turkish)
**16.** al-Qurtubi, M. b. A. (2006). *al-Jami' li-ahkam al-Qur'an* (Vol. 4) (A. b. A. al-Turki et al., Eds.). Beirut, p. 75. (in Arabic)
**17.** Richards, A. (2003, July). Socio-economic roots of radicalism? Towards explaining the appeal of Islamic radicals. (in English)

**18.** al-Razi, F. (1981). *Mafatih al-Ghayb (al-Tafsir al-Kabir).* Beirut: Dar al-Fikr. (in Arabic)
**19.** al-Suyuti. (1990). *Lubab al-Nuqul fi Asbab al-Nuzul*. Beirut, pp. 210–211. (in Arabic)
**20.** Soylemez, M. (2010). The place of non-Muslims in the early Islamic society: Rights and tolerance. *Journal of the Faculty of Theology, Istanbul University*, *22*, p.101. (in Turkish)
**21.** Shahin, M. (2003). *History of religions as a guide to interfaith cooperation*. Konya: Derin Publishing, p.140. (in Turkish)
**22.** Tumer, G. (1996). The place and importance of religion in social life. In *Turkey from the Perspective of Debated Values (Symposium, June 17–18, 1995).* Ankara. (in Turkish)
**23.** al-Wahidi. (1991). *Asbab al-Nuzul*. Dammam, p. 40. (in Arabic)
**24.** Yurdaydın, H. G. (1986). The status of non-Muslims in Islamic states. *Ankara University Journal of Faculty of Theology*, *27*(1), 97–110, p. 98. (in Turkish)